

Nadir Azayoğlu

## Yaşamışam

Mən nə ölçüyə gəlmişəm,
Nə biçimdə yaşamışam.
Varlığımı heç biliblər,
Öz heçimdə yaşamışam.

Açıq-aşkar vuran olub,
Gizli tələ quran olub.
Mən dərdimə sarvan olub,
Öz köçümdə yaşamışam.

Vaxt olub göyüm laxlayıb,
Vaxt olub suyum axmayıb.
Mən bu dünyaya baxmayıb,
Öz içimdə yaşamışam.

## Şükür

Yurddan köçdün, ya qəbirdən,
O da, bu da köçkünlükdü.
Səhvmi, düzmü? - ta qədimdən
Derlər dünya beşgünlükdü,
Yaşasan, beşinə şükür!

Ayrılıq var - aydınlıqdı,
Hər işdə bir xeyir olur!
Biz kimik ki? - qul, qaravaş.
Fərman verən deyir - *olur*,
Ərzin padşahına şükür!

Bitmədi qosqoca qəmlər,
Neçə dərdin yaşdaşıyıq.
İçimiz qəbir-qəbirdi,
Biz hamımız başdaşıyıq,
Tanrının daşına şükür!

## Ağrı

Çəkilib gedəsən özün özündən,
Kəsilə ayağın bu yer üzündən.
Bir də düşməyəsən Tanrı gözündən,
Bir də bu torpağa qayıtmayasan.

Dizin göynəməyə hər addımbaşı,
İtə qayaların çopur yaddaşı.
Gəzəsən göylərin quş qanadında,
Ordanca süzəsən yurdu, yurddaşı,
Bir də bu torpağa qayıtmayasan.

Nəyin var çəkilə haqq ayağına,
Bir üz sənin ola, bir üz Allahın.
Nələr çəkdiyini kimsə bilməyə,
Bir özün olasan, bir öz Allahın,
Bir də doğmaları didərgin düşən,
Eli yağmalanmış türkman yurdları.
Bir də hikkəsindən qovrulub bişən,
Qaratel gecədə elat qurdları
Ulaşa-ulaşa üstünə gələ.

Yaralı çiban tək göz-göz olasan,
Korun-korun yanıb köz-köz olasan,
Mələklər çığrışıb tüstünə gələ.
Qonasan kölgətək çay qırağına,
Azadlıq nə imiş - fərqi deyəsən.
Virana yurdlara, kar kahalara,
Bəxtəvər, bəxtəvər şərqi deyəsən,
Bir də bu torpağa qayıtmayasan.

## Bəsimdi

Səndən nə gözləyib, nə umasıydım?
Sən elə mənimçün haqsan, bəsimdir.
Bahar həvəsinlə payız ömrümə
Bənövşə baxışı baxsan, bəsimdir.

Hər gün bir məclisdə min qat enən var,
Hər gün bir ünvandan geri dönən var.
Sənin sevdiyin var, səni sevən var,
Sən ki, gözü-könlü toxsan, bəsimdir.

Daş altda çiçək var, ətrinə hayıf,
Ovunmaz, oxşanmaz xətrinə hayıf.
Şerimin bir-iki sətrini sayıb,
Bir ətək qayğıdan çıxsan, bəsimdir.

Bir belə haqsızlıq, bu şər içində,
Nadirin bir nisgil bişər içində.
Belə başıpozuq bəşər içində,
Bütövsən, bəsimdir, sağsan, bəsimdir.

## Gəlir

Ağ günlərə ağı dedik,
Dalınca qarası gəlir.
Günün günorta vədəsi,
Qapıya yarasa gəlir.

Can boğaza yığılmışa,
Kölgəsinə yıxılmışa,
Bu məmləkət dağılmışa,
Dərdlərin sarısı gəlir.

Mehlər ötür ağı-ağı,
Çiçəklərin ölən çağı.
Gül əkdiyim bu torpağın,
Əlimə yarası gəlir.

## Qəbələdən qayıdarkən

Əliboş qayıtdım, ürəyi dolu,
Təntimiş buludtək boşalammadım.
Gözümdə qəriblik duyan maralın
Gözündə bir damla yaş olammadım.

Havalı gəzirəm haçandı, - dedim,
Qoymayın ürəyim uçundu, - dedim.
O daşa, torpağa Laçındı, - dedim,
Torpaq olammadım, daş olammadım.

Qarabağ həsrəti qəlbimdə qəhər,
Dözdüm ağrılara dözdüm birtəhər,
Dərədə xəlvəti açılan səhər,
Zirvədə qaralan qaş olammadım.

Cökə çiçəkliydi, çiçəyi ballı,
Arısı, beçəsi, böcəyi hallı.
Güneydə bir yaz ki, xalısı xallı,
Quzeydə mürgülü qış olammadım.

Dinmə, Azayoğlu, dəmin yeriymiş,
Sevincin kədərə qənim yeriymiş.
Haqqın dərgahına dönüm yeriymiş,
Heyif bir əcələ tuş olammadım.